# Memorandum imzalanıb



Martın 1-də Azərbaycan Texniki Universiteti (AzTU) ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası arasında elmi-texniki və təhsil sahəsində əməkdaşlığa dair memorandum imzalanıb.

AzTU-nun mətbuat xidmətindən bildiriblər ki, tərəflər peşə, ixtisas və bilik səviyyəsinin daim artırılmasının zəruriliyini vurğulayıb və ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsaslanaraq peşə və ixtisaslar üzrə optimal təhsil sisteminin mərhələli tənzimlənməsi, bu məsələlər üzrə memorandum münasibətlərinin yaradılması barədə razılığa gəliblər.

Memorandumda yüksək hərbi elmi potensiala malik zabit kadrların hazırlanmasını təmin etmək, gələcək hərbi mütəxəssislərin biliklərinin artırılmasına istiqamətləndirilmiş və təhsil üzrə proqramlar sahəsində qarşılıqlı maraq doğuran əməkdaşlığı həyata keçirmək nəzərdə tutulur. Həmçinin müasir tələblərə cavab verən yüksəkixtisaslı elmi, elmi-pedaqoji bilik və təcrübəyə malik hərbi mütəxəssislərin hazırlanması, qabaqcıl elmi üsul və texnologiyaların inkişafı sahəsində yeni elmi materialların öyrənilməsi, informasiya və təcrübə mübadiləsi keçirilməsi, hərbi mütəxəssislərin elmi və təhsil proqramına uyğun təcrübəyə yiyələnməsi, birgə beynəlxalq və regional elmi konfransların təşkili, nəzəri və praktik elmi-tədqiqat işlərinin qrant şəklində aparılması planlaşdırılır.

Sənədi AzTU-nun rektoru, professor Havar Məmmədov və Hərbi Akademiyanın rəisi, general-leytenant Heydər Piriyev imzalayıblar.

Qonaqlar AzTU-nun ixtisas kafedra və laboratoriyalarında, Heydər Əliyev Mərkəzində olub, müəllim və tələbələrlə söhbət edib, əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***AZƏRTAC***